European Monitoring Centre
for Drugs and Drug Addiction

Narkotiklər və Narkotiklərdən Asılılıq üzrə Avropa Monitorinq Mərkəzininin gələcək tendensiyaların müəyyən edilməsi məqsədilə keçirilən brifinqinin xülasəsi

Sentyabr 2020-ci il

# Şərqi Avropa Qonşuluq Siyasəti ölkələrində COVİD-19-un narkotik bazarına, narkotik maddələrin istifadəsinə, narkotiklə əlaqəli zərərlərə və reaksiyalara təsiri

**COVİD-19 pandemiyası ilə əlaqəli vəziyyət və ona cavab reaksiyaları sürətlə inkişaf etməkdə davam edir. Xəstəliklərin qarşısının alınması və nəzarət olunması üzrə Avropa Mərkəzi və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən müntəzəm yenilənmələr təmin edilir, belə ki, əksər ölkələrdə milli ictimai səhiyyə təlimatları əlçatandır. NNAAMM narkotiklər və COVİD-19-la əlaqəli məsələlər haqqında aktual materiallara çıxışı təmin edən COVİD-19 resurs mərkəzini yaradıb.**

2019-cu ildən bəri NNAAMM Avropa Birliyi tərəfindən maliyyələşən EU4Monitoring Drugs (EU4MD) layihəsi (Narkotiklərin monitorinqi) çərçivəsində Avropa Qonşuluq Siyasətinin tərəfdaşları ([1]) ilə əməkdaşlığı artırıb. Layihə narkotiklə əlaqəli təhlükəsizliyə və sağlamlığa təhdidləri müəyyən etmək və cavab vermək üçün milli və regional hazırlığı dəstəkləyir.

Funded by the
European Union

EU4MD

([1]) Əlcəzair, Ermənistan, Azərbaycan, Belarus, Misir, Gürcüstan, İsrail, İordaniya, Livan, Liviya, Moldova, Mərakeş, Fələstin*, Tunis və Ukrayna

*Bu işarə Fələstin Dövlətinin tanınması kimi şərh olunmamalıdır və Üzv Dövlətlərin bu məsələ ilə əlaqəli fərdi mövqelərinə zərər vurmur.

# Xülasə

2020-ci il başlayandan  dünya ictimaiyyəti səhiyyə sahəsində koronavirus (COVİD-19) pandemiyasının səbəb olduğu görünməmiş bir fövqəladə vəziyyət yaşamaqdadır. Bu vəziyyət milli hökumətlər tərəfindən sosial məsafə və digər nəzarət tədbirlərinin tətbiqinin artmasına səbəb olmuşdur. Avropa Qonşuluq Siyasəti (AQS) ölkələrində pandemiyanın narkotik bazarları, narkotik xidmətləri və narkotikdən istifadə edən insanlar üzərində təsirini və onlar üçün nəticələrini araşdırmaq üçün Narkotiklər və Narkotiklərdən Asılılıq üzrə Avropa Monitorinq Mərkəzi (NNAAMM) gələcək tendensiyaların müəyyən edilməsi üçün tədqiqata başlayıb. Bu hesabat, 2020-ci ilin Mart və May ayları arasında ([2]) şərqi AQS ölkələrində ([3]) COVİD-19-un narkotik bazarları, narkotik xidmətləri və narkotikdən istifadə edən insanlar üzərində təsirini araşdıran tədqiqatın nəticələrinin xülasəsidir.

## Narkotik bazarları necə dəyişib?

- Tədqiqat göstərir ki, COVİD-19-la bağlı məhdudlaşdırma tədbirlərinin tətbiq edilməsindən sonra, bütün regionda narkotik bazarları cüzi və ya orta dərəcədə ixtisara məruz qalıb və təchizat zəncirlərində fasilələr yaranıb ki, bu da sərhədlərdə müsadirələrin həcminin və sayının azalması və bəzi ölkələrdə müəyyən narkotik növlərinin pərakəndə satış qiymətlərinin artması ilə təsdiq edilir (şəklə baxın).
- Bu bazar ixtisarının bəzi ölkələrdə amfetaminlərin kiçik miqyaslı (daxili) istehsalının dirçəlməsinə təkan verməsinin göstəriciləri mövcuddur.
- Pərakəndə satış səviyyəsində təmassız narkotik ticarəti üstünlük təşkil edir. Ehtimal edilir ki, bunlara, COVİD-19-un yayılmasının qarşısını almaq üçün hərəkət üzrə milli məhdudiyyətlərin tətbiq edilməsi və şəxslər arasında təmasları məhdudlaşdırmaq üçün ictimai asayiş tədbirləri və strategiyalarının gücləndirilməsi təkan vermişdir.
- Eyni zamanda, hüquq-mühafizə orqanlarının fəaliyyəti də müxtəlif şəkildə təsirə məruz qalıb və narkotiklərlə əlaqəli bildirilmiş qanun pozuntularının sayının azalması, ictimai təhlükəsizlik və asayişin təmin edilməsi istiqamətində bu dövr ərzində prioritetlərin dəyişdirilməsi siyasətinin təmin edilməsi üzərində diqqəti cəmləməklə, milli prioritetlərdə müvəqqəti dəyişiklikləri əks etdirə bilər.

---

([2]) Brifinq tam şəkildə ingilis dilində www.emcdda.europa.eu-da əldə edilə bilər.

([3]) Ermənistan, Azərbaycan, Belarusiya, Gürcüstan, Moldova və Ukrayna

ŞƏKİL

**COVİD-19 pandemiyasının ilk aylarında seçilmiş ölkələrdə narkotik qiymətlərində dəyişikliklər və narkotiklərin qatışıqsız olmaları**

| | Qiymətlər | | | | Qatışıqsız olma | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Ermənistan | Gürcüstan | Moldova Respublikası | Ukrayna | Ermənistan | Gürcüstan | Moldova Respublikası | Ukrayna |
| Kannabis – çətənə (qətran, ot) | ↑ | ↑↑ | ↑ | ↑ | Məlum deyil | Məlum deyil | Məlum deyil | Məlum deyil |
| Heroin | ↑ | ↑↑ | ↑↑ | ↑ | Məlum deyil | ↓ | Məlum deyil | Məlum deyil |
| Kokain | ↑ | Məlum deyil | ↑↑ | ↑↑ | Məlum deyil | Məlum deyil | Məlum deyil | ↓ |
| MDMA/ekstazi | Məlum deyil | ↑↑ | ↑ | ↑↑ | Məlum deyil | Məlum deyil | Məlum deyil | Məlum deyil |
| Amfetaminlər | ↑ | Məlum deyil | ↑ | ↑ | Məlum deyil | Məlum deyil | Məlum deyil | Məlum deyil |
| Yeni psixoaktiv maddələr | Məlum deyil | ↑↑ | Məlum deyil | ↑ | Məlum deyil | Məlum deyil | Məlum deyil | Məlum deyil |
| LSD | Məlum deyil | Məlum deyil | Məlum deyil | Məlum deyil | Məlum deyil | Məlum deyil | Məlum deyil | Məlum deyil |

↑↑ Əhəmiyyətli artım, >20% ↑ Cüzi artım, <20% ↓ Azalma

*Mənbə*: Milli hüquq mühafizə mütəxəssisləri arasında sorğu (Ermənistan (06.05.2020), Gürcüstan (11.05.2020), Moldova Respublikası (24.04.2020) və Ukrayna (08.05.2020) tərəfindən təqdim olunub).

## Pandemiyanın narkotik istifadəsi, narkotiklə əlaqəli zərərlər və səhiyyə xidmətlərinə təsir necə olub?

- Kannabis (çətənə) istifadəsi ən az təsirə məruz qalıb, lakin əsas fərqlər kannabisi əyləncə üçün və mütəmadi qəbul edən istifadəçilər arasında qeydə alınmışdır.
- Müxtəlif mənbələr hesab edir ki, heroin, MDMA, amfetaminlər və kokain kimi sərhədlər vasitəsi ilə regiona istiqamətləndirilən qadağan olunmuş maddələrin əksəriyyətinin əlçatanlığı azalıb. Hazırda təcrübə ilə əsaslandırmaq çətin olsa da, pandemiyanın həmin maddələrin istifadəsində azalmaya səbəb olduğu hesab edilir.
- Yerli heroin çatışmazlığı müalicəyə tələbatın artmasına töhfə vermiş ola bilər: opioidlərlə əvəzedici müalicəyə (OƏM) düşmə cəhdlərin artması və ümumiyyətlə narkotik asılılığından müalicəyə tələbatda artım müşahidə olunur.
- Bəzi kontekstlərdə müəyyən edilmiş qadağan olunmuş narkotiklərin əlçatanlığının azalması, görünür ki, spirtli içkilər kimi qanunla icazə verilən maddələrdən istifadənin, yaxud çox vaxt qadağan olunmuş maddələrlə birlikdə istifadə olunan, OƏM dərmanları və ya digər psixotrop maddələr daxil olmaqla, dərman preparatlarından sui-istifadənin artmasına səbəb olmuşdur.
- Milli məhdudlaşdırma tədbirlərinin ilk mərhələləri zamanı tibbi xidmətlərin həcmində COVİD-19-un müalicəsi ilə əlaqəli olmayan tibbi xidmətlərinin əksəriyyətinə təsir etmiş ümumi azalma var idi. Nəticədə, narkotik qəbul edən insanların adət etdikləri narkotiklərlə əlaqəli xidmətlərin əlçatanlığında

azalma və ya həmin xidmətlərin onlar üçün daha az əlçatan olması müşahidə edilir. Bəzi ölkələrdə yeni müştərilərin narkotik asılılığından müalicə xidmətlərinə, xüsusilə də, OƏM xidmətlərindən və qanla keçən infeksiyalar üçün testlərdən yararlanma imkanı da məhdudlaşdırılıb.

- İynə və şpris təchizatına cəlb olunmuş həm milli səhiyyə xidmətləri, həm də qeyri-hökumət təşkilatları (QHT-lər), mümkün olan hallarda, uzaqdan idarə olunan və səyyar xidmətləri təmin etməklə, xidmət modellərinə düzəlişlər edib.
- Regiondakı ölkələrin əksəriyyəti dərmanların fasiləsiz çatdırılmasını təmin etməklə, OƏM preparatlarının evə çatdırılma təcrübəsini sürətlə uyğunlaşdırıb. Ukraynada özəl təcrübəçi həkimlərin vasitəçəliyi ilə metadona tələbatın artması müşahidə olunub. Narkotikdən istifadə edən insanların vəkilləri milli proqramlar üçün yeni təcrübələri yaxşı qarşılayıb, baxmayaraq ki, bəzi hesabatlar evə aparıla bilən metadon dozalarına əməl edilməsinin daha yaxından yoxlanmasına, eləcə də, özəl təcrübəçi həkimlərin işinin dəstəklənməsinə ehtiyac olduğunu təklif edir.

## Şərqi AQS regionunda COVİD-19-un narkotik bazarları, narkotik xidmətləri və narkotikdən istifadə edən insanlar üzərində mümkün uzunmüddətli təsirləri hansılardır?

- Bu tədqiqatın, eləcə də Avropada və regionda aparılan buna bənzər tədqiqatların nəticələri göstərir ki, sərhədlər yenidən açılan zaman cinayət şəbəkələrinin fəaliyyətlərində və narkotik maddələrin paylanma üsullarında (səthi və illeqal internet bazarları, şifrəli rabitə, üz-üzə çatdırılma) inkişafla əlaqədar ayıqlığı qorumaq lazım gələcəkdir (NNAAMM və Europol, 2020). Bu, həmçinin səlahiyyətli idarələrin strategiyalarında əks olunmalıdır, ekspertlər isə işçi heyətin narkotik bazarı daxilində inkişaf edən istənilən yeni biznes modellərinə cavab vermək üçün hazırlanmasının təmin edilməsi məqsədi ilə işçi heyətin təlimləndirilməsinə daha çox sərmayə qoyulmasını təklif edir.
- Narkotikdən istifadə baxımından, COVİD-19-un uzunmüddətli təsirləri və karantin tədbirlərinin sonrakı yumşaldılması qarşıda bilinəcəkdir. Bu vəziyyət, bəzi ölkələrdə amfetaminlərin evdaxili istehsalının yaranması və digər daha əlçatan olan psixoaktiv maddələrin istifadəsinin artması ilə birlikdə, həm də heroin və kokain kimi bəzi narkotiklərin əlçatanlığının və istifadəsinin azalması ilə bağlı verilən məlumatları nəzərə almaqla, müşahidənin davam etdirilməsini tələb edir.
- Milli idarəetmə orqanları və xidmət təminatçıları, narkotiklə əlaqəli xidmətlərə ehtiyacı olanları cəlb etmək və saxlamaq üçün əhəmiyyətli ola biləcəyi üçün, onlayn konsultaisyalar və psixoloji dəstək, evə aparıla bilən OƏM preparatlarının dozaları və uzaqdan göstərilən xidmətlər kimi innovativ yanaşmaları necə qoruyub saxlamağı nəzərdən keçirməli ola bilərlər. Eyni zamanda, səhiyyə xidmətləri COVİD-19-un effektiv müalicəsi və ya onu törədən virusa qarşı müvafiq peyvənd hazırlanana qədər, həm müştərilər, həm də səhiyyə xidməti təchizatçılarının təhlükəsizliyinin qorunub saxlanılması ilə bağlı əlavə yük daşımağa davam edə bilərlər.

# COVİD-19 üzrə mənbələr

## NNAAMM

COVİD-19 və narkotiklərlə bağlı olan səhifəyə keçid: http://www.emcdda.europa.eu/topics/covid-19

## Avropa

Xəstəliklərin qarşısının alınması və nəzarəti üzrə Avropa Mərkəzi: https://www.ecdc.europa.eu/en/novel-coronavirus-china

Avropa Komissiyasının fəaliyyət və cavab komandası: https://ec.europa.eu/info/live-work-travel-eu/health/coronavirus-response_en

Avropa Elmi Media Mərkəzi (Avropa Parlamenti) https://sciencemediahub.eu/

ÜST Avropa http://www.euro.who.int/en/home

## Dünya

Xəstəliklərin qarşısının alınması və nəzarəti üzrə Mərkəzlər: https://www.cdc.gov/coronavirus/2019-nCoV/index.html və https://www.cdc.gov/coronavirus/2019-ncov/community/homeless-shelters/plan-prepare-respond.html

ÜST: https://www.who.int/emergencies/diseases/novel-coronavirus-2019